AYTƏN ALLAHVERDİYEVA
Azərbaycan Dillər Universitetinin dosenti, fil.ü.f.d.
aytan@ymail.com

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞINDA RİTORİK İNANDIRMA VASİTƏLƏRİ

Xülasə

Məqalədə Tənqidi Diskurs Təhlili Metodundan istifadə edilmiş, ingilisdilli siyasi diskursda geniş istifadə olunan ritorik inandırma vasitələri tədqiqata cəlb olunmuşdur. 6 noyabr 2020-ci il tarixdə Azərbaycan Prezidenti İlham Əliyevin BBC News kanalına verdiyi müsahibə ingilis dilinin imkanlarından istifadə edərək yüksək arqumentləşdirmə səviyyəsinə görə fərqləndiyindən illüstrativ materiallar bu müsahibənin mətnindən seçilmişdir. Müsahibə kommunikativ vasitələrlə yanaşı bir çox ritorik-inandırıcı vasitələrlə zəngindir.

Cənab Prezident çıxışlarında tez-tez milli vətənpərvərlik, tarixi kökümüz və milli qürur mövzularına müraciət edir, eyni zamanda, düşüncələrini ardıcıl və emosional şəkildə çatdıraraq mövqeyini açıq elan edir, öz baxış bucağını arqumentləşdirir və auditoriyanın bu mövqeyi qəbul etməyin bütün xalqın mənafeyinə uyğun olduğu qənaətinə gəlməsinə vəsilə olur.

Siyasət dilinin və siyasi diskursun özünəməxsusluğundan irəli gələrək, aparıcı kommunikasiya vasitəsi olan siyasi ünsiyyətdə müxtəlif funksiyaların həyata keçirilməsi üçün geniş imkanlar açan qəti sosial və diskursiv sərhədlər mövcud deyil. Siyasi diskursun əsas hədəfi inandırmaqdan ibarət olduğu üçün burada suqqestivlik əsas funksiyadır.

Təhlillər zamanı cənab Prezidentin persuaziv-ritorik strategiya kimi leksik-üslubi vasitələrə üstünlük verdiyi aşkar edilmişdir. Onların arasında təkrarlara, məcaz, epitet, müqayisələrə, klişe, modal söz və ifadələrə – emosional-qiymətləndirici qrammatik vahidlərə, inkluziv əvəzliklərə, ritorik suallar və təhkiyə-suallara daha çox müraciət edilmişdir.

Təhlillər nəticəsində siyasi diskursun məqsədinin auditoriyanın hiss və düşüncələrini hədəfə alaraq onlara emosional təsir göstərmək, adresatda müəyyən niyyətləri oyatmaq, inandırmaq üçün zəmin yaratmaq və hərəkətə sövq etməkdən ibarət olduğu aşkar edildi. Bir sözlə, persuazivliyin siyasi diskursun əsas funksiyası olduğu bir daha təsdiqini tapdı.

Açar sözlər: *siyasi diskurs, persuazivlik, ritorik strategiyalar, arqumentləşdirmə, suqqestivlik.*

Giriş.

Minilliklər ərzində böyük dövlət başçılarının, parlaq liderlərin, və görkəmli şəxsiyyətlərin güclü əqli və iradəsi sayəsində yaranmış və yaşamış qüdrətli dövlətlər bu gün sanki lidersiz dövlət idarəçiliyi istiqamətində təcrübələr həyata keçirir və nəticə etibarilə müasir dünyada lider böhranının şahidi oluruq. Liderlik keyfiyyətlərinə malik olmayan insanların təsadüf nəticəsində hakimiyyətə gəlməsi sınaqlardan çıxmış idarəetmə mexanizmlərinin, ümumdünya meyarlarının dəyərsizləşməsinə, böhranların, millətlərarası qarşıdurmaların artması istiqamətində dəyişməsinə səbəb olmuşdur. Çoxəsrlik dövlətçilik ənənələrinin pozulması yalnız lokal böhran və fəlakətlərin deyil, qlobal disbalansın yaranmasına rəvac vermişdir. Lider böhranının yaşandığı bu dövrdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev öz şəxsində yüksək liderlik keyfiyyətlərini qoruyaraq mükəmməl bir siyasi lider portretini yaratmağa müvəffəq olmuşdur. Bu siyasi portretdə mahir diplomat, güclü sərkərdə, bacarıqlı rəhbər, qurucu və mənəvi lider obrazları təcəssüm olunmuşdur.

XXI əsrin ilk rübünün ən görkəmli siyasətçiləri sırasında yer alan cənab İlham Əliyevin natiqlik üslubu qətiyyətli şəxsiyyət və əzmkar liderlik xüsusiyyətlərini təcəssüm etdirir. Prezident İlham Əliyevin uğurlu siyasi karyerasının əsasını təşkil edən üstün keyfiyyətlər sırasında rasionallıq, siyasi iradə, öz prinsip və inanclarına sadiqliklə bərabər gözəl natiqlik bacarıqları da yer alır. Bu məziyyətlər 27 sentyabr 2020-ci ildə başlamış və 44 gün davam etmiş Qarabağ uğrunda Vətən müharibəsi müddətində, Prezidentin istər yerli, istərsə də xarici telekanallara verdiyi müsahibələrdə, etdiyi canlı

çıxışlarında, keçirdiyi müxtəlif görüşlər zamanı etdiyi qətiyyətli çıxışlarda özünü bariz şəkildə göstərir:

Onu da bildirməliyəm ki, bir neçə gün bundan əvvəl həmsədr ölkələr tərəfindən BMT Təhlükəsizlik Şurasının iclası keçirilmişdir. İclasda bizi qane etməyən və 1993-cü ildə qəbul edilmiş qətnamələr üzərindən faktiki olaraq xətt çəkmək mənası daşıyan sənəd irəli sürülmüşdür. Biz buna qəti şəkildə etiraz etdik. Bu, ədalətsizliyin növbəti təzahürüdür, ikili standartların növbəti təzahürüdür.

Yaxud:

Ermənistan öz xoşu ilə bizim torpaqlarımızdan çıxmalıdır, rədd olmalıdır. Bunu beynəlxalq hüquq tələb edir. Ancaq onlara təsir göstərilmir, təzyiq göstərilmir, əksinə, bizə təsir və təzyiq cəhdləri müşahidə olunur. Əlbəttə ki, heç kim bizə təsir edə bilməz, bizim iradəmizə heç kim təsir edə bilməz.

Cənab Prezident çıxışlarında tez-tez milli vətənpərvərlik, tarixi kökümüz və milli qürur mövzularına müraciət edir, eyni zamanda, düşüncələrini ardıcıl və emosional şəkildə çatdıraraq, mövqeyini açıq elan edərək, öz baxış bucağını arqumentləşdirir və auditoriyanın bu mövqeyi qəbul etməyin bütün xalqın mənafeyinə uyğun olduğu qənaətinə gəlməsinə vəsilə olur. Prezidentin siyasi çıxışlarınının mətnləri məntiqi nəticələr, sadalamalar və faktik-statistik məlumatlara əsaslanan hökmlərlə zəngindir:

Azərbaycanın iqtisadiyyatı sürətlə inkişaf etmişdir. Son 17 il ərzində ümumi daxili məhsul 3 dəfə artmışdır. Azərbaycanda yoxsulluq son 17 il ərzində 49 faizdən 5 faizə enmişdir. Azərbaycanın xarici dövlət borcu dünyada ən aşağı səviyyələrdədir, ümumi daxili məhsulun təqribən 20 faizini təşkil edir. Bu göstəriciyə görə Azərbaycan dünyada 9-cu yerdədir. Neft ixrac edən dövlətlər arasında ən az xarici dövlət borcu olan Azərbaycandır.

Azərbaycanın valyuta ehtiyatları xarici dövlət borcundan 6 dəfə çoxdur. Son 17 ildə Azərbaycanın iqtisadiyyatına 260 milyard dollardan çox sərmayə yatırılmışdır. Beynəlxalq Valyuta Fondunun statistikasına görə, hazırda Azərbaycan iqtisadiyyatı alıcılıq qabiliyyəti paritetinə görə Cənubi Qafqaz regionunun ümumi iqtisadiyyatının 70 faizini təşkil edir.

Qeyd edilən yüksək keyfiyyətlər Cənab Prezidentin hər üç dildə (Azərbaycan, ingilis və rus dillərində) etdiyi çıxışlara aiddir. İngilis dilinin qlobal statusa malik olması Prezident İlham Əliyevin bu dildə etdiyi çıxışların siyasi əhəmiyyətini daha da artırır. Bu çıxışlar sırasında ən yaddaqalanları 8 iyun 2020-ci ildə Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında keçirilən Sammitində Ermənistanın baş naziri Paşinyana yersiz replikasına görə Prezident İlham Əliyevin tutarlı cavabını əks etdirən çıxış, 2 noyabr 2020-ci ildə İtaliyanın məşhur "La Repubblica" qzetinə verilmiş müsahibə, 31 oktyabr 2020-ci ildə Almaniyanın məşhur ARD tele-kanalına verilmiş müsahibə, 26 oktyabr 2020-ci ildə İtaliyanın məşhur Rai-1 tele-kanalına verilmiş müsahibə, 25 oktyabr 2020-ci ildə ABŞ-ın məşhur Fox News tele-kanalına verilmiş müsahibə, 24 oktyabr 2020-ci ildə Fransanın məşhur Fiagro qəzetinə verilmiş müsahibə, 22 oktyabr 2020-ci ildə Yaponiyanın məşhur Nikkey qəzetinə verilmiş müsahibə, 15 oktyabr 2020-ci ildə Fransanın məşhur France-24 tele-kanalına verilmiş müsahibə, 9 oktyabr 2020-ci ildə məşhur Sky News tele-kanalına verilmiş müsahibə, 9 oktyabr 2020-ci ildə məşhur CNN New tele-kanalının Connect the World verilişinə verilmiş müsahibə, 7 oktyabr 2020-ci ildə məşhur Euro News tele-kanalına verilmiş müsahibə, 4 oktyabr 2020-ci ildə məşhur Əl-Ərəbiyə tele-kanalına verilmiş müsahibə, 3 oktyabr 2020-ci ildə məşhur Əl-Cəzirə tele-kanalına verilmiş müsahibə, 15 fevral 2020-ci ildə Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələrdə edilmiş çıxışlar və sairədir. Bu siyahını uzatmaq olar. Xüsusilə 2020-ci ilin oktyabr-noyabr aylarında cənab Prezidentin verdiyi 30-a yaxın müsahibədə uzaqgörən siyasətə əsaslanaraq regionda Azərbaycanın maraqlarına cavab verən siyasi reallıq yaratmaqla qlobal informasiya cameəsində Azərbaycana qarşı olan hücumların qarşısı alındı.

6 noyabr 2020-ci il tarixində Prezident İlham Əliyevin BBC News kanalına verdiyi müsahibə ingilis dilinin imkanlarından istifadə edərək yüksək arqumentləşdirmə səviyyəsinə görə fərqlənir. Bu debatda Prezident İlham Əliyev ingilis dilində qurduğu səlis və qüsursuz nitqi ilə, eyni zamanda, Paşinyana yaxşı bir natiqlik dərsi verdi. Cənab Prezidentin öz fikrini ingilis dilində sərbəst və aydın şəkildə ifadə etməkdə heç bir çətinlik çəkməməsinin əsasında Prezident lham Əliyevin ingilis dili

səviyyəsinin yüksək olması durur. Bunları nəzərə alaraq, qeyd etdiyimiz müsahibə mətninin materialları əsasında Prezident İlham Əliyevin istifadə etdiyi ritorik inandırma vasitələrini təhlilə cəlb etmişik.

Cənab Prezidentin siyasi diskursu auditoriyaya təsir göstərmək və inandırmaq üçün istifadə olunan bir sıra maraqlı dil-üslubi xüsusiyyətləri ilə xarakterizə olunur. "Ritorun dəlillərə əsaslanması, emosional təsir göstərməsi pafosun, həmçinin şahidlik ehtimalını doğrultduğu üçün etosun yaranmasına vəsilə ola bilər" (Zeynalova, Allahverdiyeva, 2017:119). Persuaziv effektlərə, əsasən, kanonlara çevrilmiş klassik ritorik vasitə və üsullar olan alleqorik ifadə tərzi, semantik yayğınlıq, müqayisə, anonimlik, qeyri-müəyyənlik və s. vasitəsilə nail olunur (Чернявская 2006: 26).

Təhlilə cəlb etdiyimiz mübahisə mətnindən aydın görünür ki, natiq tez-tez təkrarlara müraciət edərək auditoriya üzərində emosional təsiri artırmağa çalışır:

These are groundless accusations. First, if Armenia is really concerned about that, why they do not agree to the basic principles? Because if the basic principles are confirmed, and Armenia will make a commitment which I already demand from them for many times, then everything will stop.

Yaxud:

We will provide them with everything, with food, with water, with everything.

"Daha təsirli və effektiv perifarzlar yaratmaq üçün adi, sıravi dil daşıyıcısı olmaq çox vaxt kifayət etmir. Xüsusi poetik istedad, koqnitiv yaradıcılıq, intellektual səylər tələb olunur" (Abdullayev, 2013: 253). Ümumiyyətlə, siyasi diskursun əsas xüsusiyyətlərindən biri də müxtəlif funksiyalar yerinə yetirən və müxtəlif nitq-təsir taktikaları və strategiyalarının həyata keçirilməsinə yardım edən leksik və semantik təkrarlardan geniş istifadədir. Siyasi diskursda təkrarların müxtəlif növlərinə rast gəlmək olar. Yuxarida gətirdiyimiz nümunədə eyni və yaxınmənalı leksik vahidlərin (söz, birləşmə və frazaların təkrarı) təkrar istifadəsi tavtoloji təkrarın yaranmasına səbəb olur.

Kontekstin bir neçə dəfə təkrarlanması onun konstruktiv əhəmiyyətini artırır. Prezident İlham Əliyevin çıxışlarının əsas xüsusiyyətlərindən biri də müəyyən bir mətn parçası daxilində ideya və düşüncələrin sıxlaşdırılmasıdır. Təkrar və onun müxtəlif növlərindən (anadiplosis, anafora, çərçivə təkrar, sintaktik paralellik, epifora, tavtologiya, kök təkrarlar) təhlilə cəlb etdiyimiz intervyuda geniş istifadə olunur. Mühüm nüansları vurğulamaq üçün anadiplosisə müraciət edilir:

I said many times even when they bombed Ganja, when they bombed Barda, when they bombed other cities and killed 92 people, civilians, I said we will take revenge on the battlefield.

Yaxud:

Of course, they deny, they deny everything. They denied that they hit Ganja with ballistic missiles from the territory of Armenia.

Yaxud:

And after that, of course, there will be lawsuits, lawsuits against Armenian state, and we are already preparing for that.

Eyni söz və ya ifadənin sintaktik bütövlərin əvvəlində təkrarlanmasına əsaslanan anafora, söyləmə ritmik ahəng gətirir, onun daha evfonik edir:

They live together in Russia, they live together in Ukraine, they live together in Azerbaijan, in many other parts of the world.

Yaxud:

It is still not too late for them to be reasonable. It is still not too late for them to get more on the negotiation table.

Eyni söz və ya ifadənin sintaktik bütövlərin sonunda təkrarlanmasına əsaslanan epifora, məhz söyləmin sonunda emfatiklik yaratdığı üçün ifadəlilik baxımından son dərəcə qüvvətli ritorik vasitə hesab edilir:

Because there was no military target. Church was not among the military targets. We had military targets in Stepanakert, which is the city called Khankandi in Azerbaijani. We had military targets in Shusha and we hit those military targets because they attacked us.

Tamaşaçıların şüurunda gərəkli assosiasiyaları yaratmaq və nitqdə obrazlılığı artırmaq üçün Cənab Prezident çoxsaylı məcazlara, metaforalara, metonimiyalara, klişelərə, epitetlərə və müqayisələrə müraciət edir:

I think Armenia is making a big mistake, because if they listened to us from the very beginning the war would have stopped long time ago, and we would have been already on the negotiation table (metafora).

Yaxud:

And by the way, today their opportunities to compromise is shrinking, because we are getting those territories back by force. Our compromise is still on the table. But it is not 100% sure that it will be on the table if we take all these territories back.

Our position is there must be a certain level of self-governance, like municipal governance or cultural autonomy for Armenians. But we didn't go too far. And if Pashinyan did what I ask from the very beginning, when we liberated Fuzuli, then the war would have stopped, and we would have talked now about how to move on the negotiation table (epitet).

Yaxud:

Therefore, those who live in Nagorno-Karabakh now, they can be absolutely sure that we will take care of them and they will live under Azerbaijani umbrella much better.

Yaxud:

The selflessness of the Azerbaijani people shows once again that we are a great nation, we have demonstrated unity, and this unity will strengthen us even more, will make our country even stronger.

I don't want to look too far ahead, because it will depend on the situation on the battlefield. It will depend on Armenia's behavior, and on other countries' behavior (metonimiya).

Yaxud:

By the way, the first president who was overthrown by Karabakh clan published an article saying that what Azerbaijanis are offering now to us they will not offer again.

Because of this black propaganda against Azerbaijan in international media (klişe).

Yaxud:

Of course, the settlement of the Nagorno-Karabakh conflict will give our country a new breath of life.

Yaxud:

We are brothers, we are friends, and you say huge support, you are right, but I want to specify, this is a political support and moral support.

Yaxud:

On the basic principles we have very clear picture.

Yaxud:

I think that the future of our country will be very bright.

Prezident İlham Əliyev ingilis dilində çıxışlarında öz şəxsi mövqeyini, fərdi fəaliyyətini ifadə edən leksik vahidlərdən – modal sözlərdən və ifadələrdən geniş istifadə edir. Ümumiyyətlə, modallıq nitq-inandırma taktikasının ayrılmaz tərkib hissəsidir. Həmsöhbəti mövqeyini təqdim etmək vasitəsilə inandırmağa çalışan natiq gerçəkliyi ifadə etdiyini iddia edə bilər (Морозова, Бородавкина 2015: 130).

Bununla bərabər, natiq mövqeyini çeviklik – özünəinam nümayiş etdirərək ifadə edə bilər. Beləliklə, inandırıcı nitq obyektivlik/subyektivlik əlamətlərinə və natiqin özünəinam dərəcəsinə görə fərqlənə bilər. Natiq öz həmsöhbətini inandırmağa çalışarkən hətta epistemik və optativ modal vahidlərdən istifadə edə bilər; başqa sözlə, təqdim etdiyi faktları mümkün/qeyri-mümkün və arzuolunan/arzuolunmaz kimi qiymətləndirə bilər. Modallığa müraciət etməklə natiq qarşısına qoyduğu hədəfə (həmsöhbətə təsir etmək və onu ifadə edilmiş mövqeyi qəbul etməyə inandırmaq) nail olmağın effektivliyini təmin edir. Bu baxımdan, cənab Prezidentin fərdi üslubu üçün – inandırıcı nitq və çıxışlarında müşahidə olunan səciyyəvi cəhətlərdən biri də emosional-qiymətləndirici modal sifətlərdən geniş istifadədir:

It is a very clear message to Armenia and unfortunately, Armenia did not agree to the basic principles which have been elaborated by the Minsk Group co-chairs and the previous Armenian leadership.

Yaxud:

These are groundless accusations.

Yaxud:

We ask and we demand the implementation of UN Security Council resolutions which were adopted back in 1993, which demanded immediate, complete and unconditional withdrawal of Armenian troops from the occupied territories.

Yaxud:

Because of the biased approach to the conflict. Because of this black propaganda against Azerbaijan in international media.

Yaxud:

We are facing this fake news for decades.

Yaxud:

Of course, because Human Rights Watch due to very biased approach to Azerbaijan, due to the fact they did not notice any wrong doing in Armenia even when journalists are dying in prison, even when main opposition leader is in prison. So, this organization is not credible in Azerbaijan.

Cənab Prezidentin nitqində persuazivlik yaradan inkluziv əvəzliklərdən (*we* (biz), *our* (bizim), *us* (bizə, bizi) istifadə etdiyinin və bununla da həmrəylik (konsolidasiya) taktikasına müraciət etdiyinin şahidi oluruq:

We ask and we demand the implementation of UN Security Council resolutions which were adopted back in 1993, which demanded immediate, complete and unconditional withdrawal of Armenian troops from the occupied territories.

Yaxud:

I think that must be checked with our authorities whether there is a possibility or not. You can see our destroyed villages. We are fighting on our own land. Armenian army is on our land.

Yaxud:

Before coming and lecturing us and in your question, accusing me.

Yaxud:

We are brothers, we are friends, and you say huge support, you are right, but I want to specify, this is a political support and moral support.

Bununla yanaşı inandırma strategiyası qismində cənab Prezident öz şəxsi mövqeyini ifadə edir və tez-tez *I, my, me* (mən, mənim, məni/mənə) şəxs və yiyəlik əvəzliklərinə müraciət edir:

I think it is possible, because I, as a President, say today and said many times that we want to live side by side. And if we did not want to live side by side why should I say that?

Yaxud:

In order to accuse me saying that Armenians will not have free media here, let's talk about Assange.

Yaxud:

We want to stop, and what I am saying now I was saying from the very beginning and people who know me, they know that I am a man of my word. What I say, I do. If Pashinyan tells that today, I promise you that we will stop immediately, but he doesn't do it.

Yaxud:

I have a hope, because my hope is based now on our success on the battlefield. My hope is not based on Armenian constructive position, because what we have seen on the battlefield, what we have seen in Fuzuli, in Jabrayil.

Prezident İlham Əliyevın nitqində sintaktik səviyyənin əsas inandırma vasitələrindən olan ritorik suallara və təhkiyə-suallara tez-tez təsadüf edirik:

First, if Armenia is really concerned about that, why they do not agree to the basic principles? Because if the basic principles are confirmed, and Armenia will make a commitment which I already demand from them for many times, then everything will stop.

Yaxud:

If we are destroying churches as Armenians say, why didn't we destroy it here in Baku?

Yaxud:

Why they can co-exist in other parts of the world? Do you know that there are villages in the neighboring Georgia, where Armenians and Azerbaijanis live together in the same village? Why can they live there and cannot live here?

Yaxud:

But if you raise this question, can I ask you also one? How do you assess what happened to Mr Assange? Isn't it the reflection of free media in your country?

Nəticə.

Yuxarıda söylədiklərimizdən belə nəticəyə gələ bilərik ki, ritorik suallar vasitəsi ilə cənab İlham Əliyev həm auditoriyanın diqqətini vacib məqamlara cəlb edir, həm də onları bir daha haqlı mövqeyini qəbul etməyə inandırır.

Siyasət dilinin və siyasi diskursun özünəməxsusluğundan irəli gələrək aparıcı kommunikasiya vasitəsi olan siyasi ünsiyyətdə müxtəlif funksiyaların həyata keçirilməsi üçün geniş imkanlar açan qəti sosial və diskursiv sərhədlər mövcud deyil. Siyasi diskursun əsas hədəfi inandırmaqdan ibarət olduğu üçün, burada suqqestivlik əsas funksiyadır. Tədqiqat zamanı əldə etdiyimiz nəticələr bir daha Cənab Prezidentin persuaziv nitqlərinin gerçək həqiqətlərin əks etdirdiyini, fikirlərini dəlillər vasitəsilə əsaslandıraraq aydın, ardıcıl və arqumentləşdirilmiş şəkildə ifadə etdiyini qeyd etməyə əsas verir. Bu zaman istifadə olunan inandırma strategiyaları içərisində ritorik vasitələr üstünlük təşkil edir. İstifadə olunmuş ritorik dil-üslubi vasitələr siyasi mübarizəni vizuallaşdırmağa və öz inanclarını müdafiə etməyə hazır olan auditoriyanın istəklərini əks etdirməyə hədəflənmişdir.

ƏDƏBİYYAT

1. Abdullayev, S. (2013). Qeyri-səlis dilçilik təcrübəsi. Bakı: Victory.
2. Chilton, P. & Schaffner, Ch., eds. (2002). Politics as Text and Talk: Analytic Approaches to Political Discourse. 4 edn. Discourse Approaches to Politics, Society and Culture. John Benjamins, Amsterdam.
3. Zeynalova, S., Allahverdiyeva A. (2017)/ Introduction to Rhetoric. Baku: Mutarjim.
4. Fairclough, N. (1989). Language and Power. London: Longman.
5. Морозова, О., Бородавкина Е. (2015). Актуализация категории модальности в американской риторике начала XXI века // Политическая лингвистика. №4. - С.129-133.
6. Чернявская, В. (2006). Дискурс власти и власть дискурса. -Москва: Флинта.
7. Шейгал Е. (2004). Семиотика политического дискурса. Москва: ИТДГК Гнозис.
8. https://president.az/articles/44370 Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində operativ müşavirə keçirilib, 25 oktyabr 2020.
9. https://president.az/articles/42271 "COVID-19 dövrü və sonrakı dönəmdə Dayanıqlı İnkişaf Məqsədlərinin 2030-cu il Gündəliyinin maliyyələşdirilməsi" mövzusunda dövlət və hökumət başçılarının toplantısında İlham Əliyevin nitqindən, 29 sentyabr 2020.
10. https://www.researchgate.net› 3008... Teun A.van Dijk. Political discourse and political cognition. On Jan 1, 2002.

Айтан Аллахвердиева

Средства риторического убеждения в речей Президента Азербайджанской Республики Ильхама Алиева

Резюме

В статье исследуются средства риторического убеждения, широко используемые в англоязычном политическом дискурсе применением Метода критического дискурс-анализа. Поскольку интервью президента Азербайджана Ильхама Алиева BBC News 6 ноября 2020 года отличалось высоким уровнем аргументации с использованием возможностей английского языка, иллюстративные материалы были отобраны из текста этого интервью.

Интервью богато множеством риторических и убедительных средств, а также коммуникативных средств. В своих выступлениях Господин Президент часто затрагивает вопросы национального патриотизма, исторических корней и национальной гордости, а также последовательно и эмоционально излагает свои взгляды, открыто заявляет о своей позиции, аргументирует свою точку зрения и убеждает аудиторию в том, что принятие этой позиции в интересах всей нации.

Из-за природы политического языка и политического дискурса не существует четких социальных и дискурсивных границ, которые открывают широкий спектр возможностей для реализации различных функций в политической коммуникации, которая является ведущим средством коммуникации. Поскольку главная цель политического дискурса – убедить, суггестивность здесь является главной функцией.

Анализ показал, что Господин Президент отдает предпочтение лексико-стилистическим инструментам как убеждающе-риторическая стратегия. Среди них в основном использовались повторы, метафоры, эпитеты, сравнения, клише, модальные слова и выражения – эмоционально-оценочные прилагательные, включающие местоимения, риторические и повествовательные вопросы.

Анализ доказал, что цель политического дискурса состоит в том, чтобы воздействовать на чувства и мысли аудитории, оказывать на них эмоциональное влияние, пробуждать определенные намерения у адресата, создать основу для убеждения и мотивировать действия.

Вкратце, это еще раз подтверждено что убедительность – ключевая функция политического дискурса.

Ключевые слова: *политический дискурс, убедительность, риторические стратегии, аргументация, суггестивность.*

Aytan Allahverdiyeva

Means of rhetorical persuasion in the President of the Azerbaijan Republic Ilham Aliyev's speeches

Summary

The article studies the tools of rhetorical persuasion widely used in English political discourse. As the interview with the President of Azerbaijan Ilham Aliyev to BBC News on November 6, 2020, differs owing to its high level of argumentation by using the rich opportunities of this language, the illustrative materials were selected from the text of this interview.

The interview is rich in rhetorical and persuasive means, as well as communicative means. In his speeches, Mr. President often addresses such issues as national patriotism, national historical roots and national pride, as well as consistently and emotionally conveys his views, openly declares his position, argues his point of view, and convinces the audience that accepting this position is in the interests of all people.

Due to the nature of political language and political discourse, there are no clear social and discursive boundaries that open up a wide range of possibilities for the implementation of various functions in political communication, which is the leading means of communication. Since the main goal of political discourse is to persuade, suggestiveness is the main function here. The analysis revealed that Mr. President prefers lexical-stylistic tools as a persuasive-rhetorical strategy. Among

them repetition, metaphor, epithet, comparison, cliché, modal words and expressions - emotional-evaluative adjectives, inclusive pronouns, rhetorical questions and questions-in-the narrative were mostly used.

The analysis revealed that the purpose of political discourse is to target the audience's feelings and thoughts, to influence them emotionally, to arouse certain intentions in the addressee, to create a basis for persuasion, and to motivate action. In brief, it is reaffirmed that persuasion is the key function of political discourse.

Keywords: *political discourse, persuasion, rhetorical strategies, argumentation, suggestive-ness.*